**T E A T R S Ə N Ə T İ**

**UOT: 792.**

**Yaqut Paşayeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Baş müəllim**
**e-mail: yagutpasha@mail.ru**

# AKTYORUN FORMALAŞMASININ VƏ TƏRBİYƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

**Xülasə:** Bu məqalədə Konstantin Stanislavski və Mixail Çexov kimi teatr müəllimlərinin təcrübəsinə əsaslanaraq aktyorun ilk təhsil illərindən müstəqil yaradıcı şəxs kimi formalaşmasının əsas prinsiplərini araşdırılır. Məqalədə aktyorun peşəkar inkişafı və formalaşmasının əsas komponenti kimi müstəqil işinin əsas müddəaları da müzakirə olunur.

**Açar sözlər**: Mixail Çexov, Konstantin Stanislavski, prinsiplər, aktyor tərbiyəsi.

Aktyor sənəti ilə məşğul olan hər bir kəs üçün peşəkarlıq vacib şərtdir. Bu sənətə yiyələnmək istəyən tələbə də bu peşəkarlığın əsaslarına artıq tədris prosesi zamanı yiyələnməlidir. İstənilən aktyor məktəbinə meyilli olmasından asılı olmayaraq, tələbə bütün məlum olan məktəblər üçün aktual və danılmaz olan prinsiplərə riayət etməklə gələcək peşəkarlığının təməlini qoyur.

Sirr deyil ki, aktyorun ən ümdə vəzifəsi obrazın ən inandırıcı yolla tamaşaçılara təqdim edilməsidir. 20-ci əsrin əvvəllərində Konstantin Stanislavskinin "Obrazın yaradılması" kitabında qeyd etdiyi kimi, bir neçə əsr və nəsillər boyunca aktyorlar öz obrazlarının məğzinin tapılmasına görə hər cür səy göstərmişlər.

Müxtəlif teatr cərəyanlarının öyrənilməsi nəinki idrakı, həm də əməli əhəmiyyətə malikdir. Artıq əvvəlki illər müxtəlif tədris materiallarında qeyd olunan kimi, göstərmə və yaşama məktəbləri arasında mübarizə getmir. Aktyor məktəblərinin və üslublarının artdığı dövrdə hər bir peşəkar, o cümlədən tələbə-aktyor bu müxtəliflikdə çox asan surətdə hər birinin xarakteri, hüdud və imkanları, estetikası, yaradıcılıq metodu, işlənilən texnikaların arasında olan prinsipial fərqləri qarışdıra bilər.

Bütün bu maneələri aşmaq üçün hər bir tələbə tədris prosesi zamanı ona verilən ümumi biliklərin tətbiq edilməsi, xüsusi qabiliyyətlərin yaradılması içində öz individuallığını, təkrarolunmaz oyun tərzini formalaşdırmaq üçün öz aktyor tərbiyəsinin necə həyata keçirilməsini, onun prinsiplərini bilməlidir. Aktyor səhnədə öz potensial keyfiyyətlərinin inkişafı və təkmilləşdirilməsi üçün apardığı sistematik iş teatr tədrisinin pozulmaz qanunudur. Tələbə-aktyor müəyyən iş forması kimi "aktyorun səhnədə daxili və zahiri sərbəstliyi"ni əhatə etmək üçün kifayət qədər əməli bilik və vərdişlərə malik olmalıdır. Məşğələnin ilk mərhələsində tələbələrin iradə və diqqətinin nə dərəcədə hazır olduğu yoxlanılır. Daha sonra zahiri gərginliyin götürülməsi üçün məşğələlər aparılır. Bədii-yaradıcılıq məsələlərini dərindən həll etməyə başlamazdan əvvəl daxili və zahiri sərbəstliyi yoxlamaq vacibdir.

Belə bir vəziyyəti əldə etməkdə tələbə-aktyor üçün dünya səviyyəsində qəbul edilmiş digər teatr xadimlərinin nəzəri-praktiki təcrübəsindən faydalanmaq məqsədəuyğundur. Belə xadimlərdən biri Konstantin Stanislavski ilə sıx əməkdaşlıq edən, daha sonra öz metodikasını yaradan Mixail Çexovun dinamika prinsiplərinə müraciət etmək olar.

Bu prinsiplər bəzi halda mücərrəd və qeyri-konkret kimi qəbul edilə bilər. Lakin yaddan çıxarmaq lazım deyil ki, aktyor sənəti özü-özlüyündə elə nəsnələrlə manipulyasiya etməli olur ki, müasir psixologiya onları mücərrəd anlayışlar kimi qəbul edə bilər.

Dinamik prinsiplər.

1. Enerji olmadan heç bir səmərə əldə etmək mümkün deyil. Enerjinin özü də daha çox enerji hasil etməyə kömək edir. İnsanda həyati enerjinin olması onun fiziki qüvvəyə malik olmağından o qədər də asılı deyil. Daxili enerjinin düzgün bölüşdürülmə və lazımi istiqamətə yönəltmək bacarığı aktyor üçün xüsusi əhəmiyyət daşıyır. Siyahıda olan digər prinsiplər də bu və ya digər səviyyədə bilavasitə enerji anlayışı ilə bağlıdır.

2. Təxəyyül aktyor peşəsində ilk pillələri təşkil edir. Onu hər gün təkmilləşdirmək vacibdir. Tələbə-aktyor hər gün yaşadığı həyatdan xəyali bir aləmə keçməyi və bu qabiliyyətini öz yaradıcılığında səmərəli tərzdə işlətməyi öyrənməlidir. Təkcə Stanislavski deyil, həmçinin, Mixail Çexov, Yevgeni Vaxtanqov və bir çox teatr pedaqoqları aktyor tərbiyəsində və formalaşmasında təxəyyülün inkişaf etdirilməsini xüsusi qeyd edirdilər. Bəlkə də bu məqam müxtəlif üslub

və yaradıcı istiqamətlərin nümayəndələrinin hamısının yekdilliklə qəbul etdiyi nadir ortaq mövqelərdən biridir. Məsələn, Mixail Çexov gerçək həyatdan xəyali aləmə keçidi "aktyor marşı" adlandırdığı məşğələdə müəyyən ifadələr ardıcıllığını söyləməklə həyata keçirdirdi:

– Mən yaradıcı insanam;

– Mən emanasiya (özündən işıq/nur/pozitiv enerji buraxmaq bacarığı) etməyi bacarıram;

– Qollarımı başım üzərində qaldırmaqla mən yer üzərində pərvaz edə bilərəm;

– Qollarımı aşağı salmaqla pərvazımı davam edəcəyəm;

– Başım və çiyinlərim ətrafında fırlanan hava kütləsində mən təfəkkürün qüvvəsini əldə edirəm;

– Başım və sinəm ətrafında fırlanan hava kütləsində mən hisslərin qüvvəsini əldə edirəm;

– Başım və ayaqlarım ətrafında fırlanan hava kütləsində mən iradənin qüvvəsini əldə edirəm;

– Mən olduğum kimi varam.

Buna bənzər digər məşğələlər vasitəsilə aktyor öz şəxsiyyətini məhdudlaşdıran çərçivələrdən kənara çıxmağa imkan yaradan daxili azadlıq verir. Bu azadlığı əldə etmək üçün maksimal konsentrasiya və ya diqqətin cəmlənməsi tələb olunur.

3. Diqqətin cəmlənməsi (konsentrasiya) hər hansı bir dəyərin, istənilən məhsulun, xidmətin hasilatında mühüm yer tutan nəsnədir. Konsentrasiya nəsə barədə daha səylə düşünmək mənasını daşımır. Konsentrasiya diqqət predmeti olan obyektə istiqamətlənməni səciyyələndirir. Bunun vasitəsilə biz onun keyfiyyətini, xüsusiyyətini hiss edirik, ondan gələn impulsları qəbul edirik. Tam konsentrasiya səviyyəsini əldə edən aktyor tamaşaçılara maksimal dərəcədə təsir göstərmək imkanına malikdir. İstənilən sənət diqqəti cəmləmədən mövcud ola bilməz.

4. İnteqrasiya – aktyor tərəfindən təqdim edilən obrazlar onun bədəninə müdaxilə edilməlidir. Hər hansı obrazın daxili aləmini açmaq üçün tələbə-aktyor bu prinsipi yadda saxlamalı, onun icrası üçün lazım ola bilən bütün vasitələri tam surətdə mənimsəməlidir.

5. Emanasiya aktyorun öz üzərində gördüyü işi, obrazın daxili aləmini

açıqlamağı, hissləri ifadə etmək bacarığı, əməli hərəkətləri nəticəsində tamaşaçılara təsir etmə, onların ürəyinə, ruhuna toxunma qabiliyyətini izah etməyə çalışan anlayışdır. Bu, həm aktyorda rol oynamaq, həm də tamaşaçılarda seyr etmək həvəsinin, estetik ləzzətin əsasını təşkil edir.

6. Ekspansiya və Reduksiyanı bizim dildə Genişlənmə və Daralma kimi təyin edərək, bu təbiət qüvvələrinin insan ünsiyyətinin əsasını təşkil edən prinsipləri kimi . Bu prinsiplərin adi həyatda, təbiətdə nümunələri çoxdur. Qışda soyuq iqlimdə havanın genəlməsi ilə tədricən isti yay iqliminə keçməsi, sonradan həmin isti havanın sıxılaraq soyuq qış havasına keçməyi misal gətirmək olar. İnsan orqanizmi, onun hissələri də eyni prinsiplər əsasında fəaliyyət göstərir. Bizim emosional durumumuz, həmçinin, həmin qüvvələrin təsiri altında olur. İnsanın düşüncələri həyatında nəyəsə açıq olmaq, başqa mətləblərə bağlı olmaqdan asılıdır. Aktyor sənətində bu prinsipləri əğz etmədən fiziki əməllər texnikasını öyrənmək mümkün deyil. Tələbə bütün tədris prosesində bu prinsipləri hər mərhələdə tətbiq etməyi öyrənməlidir.

7. Məkan aktyor üçün güclü bir müttəfiq olmaq potensialına malikdir. Əgər aktyor qarşısına onu əhatə edən məkanı, mühiti tam formada mənimsəmək məqsədi qoyursa, həmin məkanın hətta ölçülərinin onun oyununa təsir edə biləcəyini nəzərə almalıdır. Aktyorun öz rolunu oynamağı, obrazı hansı səviyyədə və üslubda tamaşaçıya təqdim etməsi, göstərməsi və ya yaşamasından asılı olaraq, həm ifaçı, həm də seyrçi üçün məkanın özünün qavranılma tərzini, daha dəqiq desək, qavrayışda məkanın parametrlərini dəyişir. Aktyorun “soyuq” oyunu onunla seyrçi arasında məsafəni artırır, məkanı xəyalən genişləndirir, tamaşaçı özünü həddən artıq narahat və tənha hiss edir və bir nəticə olaraq, qarşısında nümayiş olunan bütün tamaşaya məhz belə ovqatda baxmağa məcbur olur. İstər mono-tamaşada oynayan tək aktyor, istərsə də böyük tamaşada iştirak edən bir neçə aktyor öz təxəyyüllü və ifadəliliyi ilə təkrarolunmaz təəssürat bağışlaya bilərlər.

8. İstiqamətlənmə ilk növbədə məkana aid olduğu üçün burda əsas dinamik istiqamətləri: ekspansiya və reduksiyanı, irəli və gerini, aşağı və yuxarını dəqiq surətdə anlamaq vacibdir. Bu istiqamətləri oyun zamanı nə formada və hansı tərzdə istifadə etməyi hər bir aktyorun öz öhdəsinə düşən vəzifədir. Bircə onu qeyd etmək lazımdır ki, bütün bu istiqamətlər tərəf müqabili ilə olan ünsiyyətə xidmət etməlidir. İstiqaməti mizanla bir eləmək də səhv yanaşmadır. Onu

seçmək ilk nəzərdən asan görünə bilər. Lakin onu da nəzərə almaq lazımdır ki, öz tərəf müqabili ilə iş zamanı aktyor bu istiqamətlərin seçimini yalnız rejissorun quruluşuna görə deyil, həm də özünün obrazı ilə bağlı hisslərinə uyğun olaraq seçməlidir. Bu məqam tamaşanı hər hansı bir formaya salıb və ya formasız bir vəziyyətə də gətirə bilər.

9. Qütbləşmə anlayışı insan hisslərinin iki qütbü arasında olan emosional halın dəyişkənliyini təyin edən əsas prinsipdir. Ona əsasən, obrazın yaradılmasında insan xarakterinə xas olan təzadlığı xüsusi nəzərə almaq lazımdır. Məhz bu təzad obrazın ifa edilməsində müxtəlif həyat seçiminin edilməsinin məntiqli və əsaslandırılmış formasını təşkil edir. Bundan savayı, bu qütblər mütləq surətdə iki olmaya da bilər. Onların sayının artıq olması obrazın daha müxtəlif, əsrarəngiz və maraqlı olmasına zəmanət verir. Həm də rolun ifasında başlanğıcı və sonu da belə qütblərlə təyin edərək oynamaq daha məqsədəuyğun olar.

10. Keyfiyyət həm pyesin analizini, həm rolun yozumunu, həm də təklif olunmuş vəziyyətin formasını və mənasının təyin edilməsini xarakterizə edən prinsipdir. Keyfiyyət səhnədə istənilən şeyi tamam başqa bir nəsnəyə çevirə bilər. Keyfiyyət səhnədə icra edilən əməlin "necə" edilməsinə aiddir. Keyfiyyət aktyorun bilavasitə hissləri ilə bağlıdır. Personajları təsvir etmək üçün müxtəlif – gərgin, mülayim, güclü, cəsarətli, ləng, zirək, məğrur, çevik, ağır kimi sözlər işlədirik. Beləliklə, bu sözlər vasitəsilə onların əsas xüsusiyyətlərini qeyd edirik. Tələbə-aktyorlar əşyaların, obrazların və insanların keyfiyyətlərini təyin etməklə nəticəni öz yaradıcılıqları üçün istifadə etməyi bacarmalıdırlar. Tələbə ətraf aləmi məhz bu prinsip əsasında müşahidə etmək, öyrənməklə öz gələcək işlərində tətbiq edərək uğur qazanmaq imkanlarını artıracaq.

11. Düşüncə, hisslər, istək insanın ən sadə əməllərinin əsasında durur. Bu primitiv funksiyanın yerinə yetirilmə mexanizmini öyrənmək istənilən mürəkkəb ideyaların analizində belə tətbiq etməklə onları rahat formada mənimsəmək mümkündür. İnsan, ilk növbədə, düşünmək bacarığı ilə seçilir. İnsan hissləri də bu düşünmək qabiliyyətinin bir nəticəsidir. Bundan sonrakı mərhələ isə əməldir, istəyin, iradənin ifadəsidir. Bu əməllər silsiləsi digər hisslərin yaranmasına, o, da öz növbəsində yeni düşüncələrə, onlar da yeni hisslərə və ya əməllərə təkan verə bilər. Belə yanaşma öz çərçivələrində məhdudlaşır, lakin eyni zamanda bütün imkanları özündə ehtiva edir. Bu üç funksiya obrazların arasında münasibətlərin qurulmasını, onların nitqlərinin məzmununu, intonasiyasını, əməllərin ifadə va-

sitələrini dəqiq təyin etməkdə xüsusi rol oynayır.

12. Forma və estetika hissi – insanın qavrayışında anlaşılan hər bir nəsnə mütləq bir formada olmalıdır. Çünki insan orqanizmi də bədən kimi bir formadadır. İnsan ətraf aləmi öyrənməyi ilk mərhələlərdə öz bədənindən başlayır. Məhz bu mərhələdə ağrı, üzüntü, stressin nə olduğunu özümüz üçün açıqlayırıq. Teatr sənətində də digər formaları: pyesi, tamaşanı, səhnəni, monoloqu, əlbəsəni, bədii tərtibatı, tərəf müqabillərini dəqiqləşdirmək lazımdır. Bütün bunları nəzərə almaqla bərabər, tələbə-aktyor öz oyun tərzinin, ifadə vasitələrinin müəyyən bir formada təqdim olunmasını özü üçün dəqiq təyin etməlidir. Bunun üçün tələbə özündə estetik qavrama qabiliyyətini, zövqünü inkişaf etdirməlidir ki, forma hissi ilə bir yerdə onda öz obrazı üzərində işi, onun necə ifa edilməsi, tamaşanın strukturunda hansı yeri tutmalı olduğunu düzgün təyin etmək üçün forma və estetik hissi formalaşdırmalı və inkişaf etdirməlidir.

Bütün sadalanan prinsiplər mücərrəd səslənsə də, onlarda tələbə-aktyorun öz üzərindəki iş prosesində səmərə əldə etməsi üçün yaradıcılığa xüsusi və lazımi yanaşma mövcuddur.

Mixail Çexovdan fərqli olaraq Konstantin Stanislavskinin tərtib etdiyi metodda bütün prinsiplər kifayət qədər açıq formada təsvir edilmişdir. Lakin burda da müəyyən mücərrədlikdən tam surətdə qaçmaq mümkün olmadı.

Stanislavskinin sistemi ifaçılıq sənətinin elmi əsaslandırılmış nəzəriyyəsi, aktyorluq texnikası üsuludur. O, həyatın qanunlarına uyğun olaraq qurulur, burada fiziki və zehninin ayrılmaz birliyi mövcuddur, burada ən mürəkkəb mənəvi hadisə xüsusi fiziki əməllərin ardıcıl zəncirbəndi ilə ifadə olunur. Bilik inam verir, inam azadlığı doğurur və bu da öz növbəsində insanın fiziki davranışında öz ifadəsini tapır. Xarici azadlıq daxili azadlığın nəticəsidir.

Aktyor peşəsinə yiyələnmək istəyən hər bir kəsdən ilk olaraq, özü olmaq və bunun üçün də özünü daha yaxşı tanımaq, öz əqli və fiziki bacarıqlarını təyin etmək, onları inkişaf etdirmək, təkmilləşdirmək tələb olunur.

Aktyor rolu alan kimi və tamaşanın mətnindən öz qəhrəmanına hansı fiziki xüsusiyyətlərin xas olduğunu başa düşən kimi dərhal xarici xüsusiyyət elementləri üzərində işə başlamaq lazımdır. Tamaşada birbaşa göstərilən xüsusiyyətlərə aktyor sonradan rol haqqında fantaziya prosesində özünün quracağı xüsusiyyətləri əlavə edəcək – onda obrazın xarici xarakteristikasına dair ev tapşırığı müvafiq olaraq daha mürəkkəb olacaqdır.

**Ədəbiyyat siyahısı:**

1.K.S.Stanislavski "Mənim səhnə həyatım". M:1969

2.M.A.Əliyev "Xatirələrim". B:1984

3.M.Abdullayev "Ələsgər Ələkbərovun həyatı və yaradıcılığı". B:1972

4.М.О.Кнебель «О действенном анализе пьесы и роли». М:1961

5.К.С.Станиславский «Собрание сочинений». том 2, 3, 4-ый. 1954-1961

6.Л.В.Клюшов «Первые киносъемки». Работа с актёром. М:1962

7.В.Бабочкин «Работа актёра в театре, кино и на телевидении». М:1972

8.С.Юткевич «Человек на экране». М:1947

9.П.Ершов «Технология актерского искусства».

10.G.Baxşiyeva "Aktyor sənəti fənnində əsas amillər". Bakı: 2010

11.L. Petit "The Michael Chekhov Handbook". New York: 2010

**İnternet mənbələr:**

1.https://alpinabook.ru/blog/8-akterskikh-tekhnik/

2.https://multiurok.ru/files/mietody-i-priiomy-na-zaniatiiakh-po-aktiors-komu-mastierstvu.html

3.https://proforientator.ru/publications/articles/professiya-akter.html

4.https://kinomaster.pro/akterskaya-igra-v-kino-i-teatre-5-printsipial-n-y-h-otlichij/

5.http://teatrsemya.ru/lib/rejissura/stanislavskij-4-rabota-aktera-nad-rol-yu.pdf

6.https://4brain.ru/akterskoe-masterstvo/sistema-stanislavskogo.php

7.https://studopedia.ru/14_72592_formi-metodi-i-sredstva-obucheni-ya-stsenicheskomu-masterstvu.html

8.https://kinoreporter.ru/kak-uchat-akterov-shkoly-tehniki-teorii-i-po-dhody/

9.https://infourok.ru/metodicheskoe_posobie_uroki_akterskogo_mas-terstva-118080.htm

10.https://4brain.ru/akterskoe-masterstvo/exercises.php

**Ягут Пашаева**

## ОСНОВНЫЕ ПРИНЦИПЫ В ФОРМИРОВАНИИ И ВОСПИТАНИИ АКТЁРА

**Резюме:** Автор статьи исследует основные принцы становления актёра, как независимой творческой личности, начиная с первых лет обучения, опираясь на опыт таких театральных педагогов как Константин Станиславский и Михаил Чехов. В статье также рассматриваются основные положения для самостоятельной работы актёра, как главный компонент его/её профессионального развития и становления.

**Ключевые слова**: Михаил Чехов, Константин Станиславский, принципы, искусство актёра.

**Yagut Pashayeva**

## THE MAIN PRINCIPLES OF SHAPING AND RAISING OF ACTOR

**Summary**: The author of the article analyzed the main principles of development of actor as an independent personality from his/her first courses of education process, regarding on the experience gained by such theatre teachers as Konstantin Stanislavski and Mikhail Chekhov. In the article the basic regulations of independent working of actor there are observed as main component of his/her professional forming and development.

**Key words**: Konstantin Stanislavski, Mikhail Chekhov, principles, acting technique.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzə fəlsəfə doktoru, baş müəllim Elçin Cəfərov**